# 2019-cu il üzrə İnklüziv Təhsil Mərkəzi tərəfindən görülmüş işlər haqqında hesabat

## Gənclərin İnnovasiya layihəsi start götürüb –

***Dekabrın 24-də Azərbaycan Xüsusi Olimpiya Komitəsinin təşkilatçılığı, UNEC-in İnklüziv Təhsil Mərkəzinin və UNEC Tələbə Həmkarlar İttifaqı Komitəsinin tərəfdaşlığı ilə "Gənclərin innovasiya layihəsi" start götürüb.***

Layihənin ilk mərhələsi olan "Planting trees and friendships in Azerbaijan" adlı ağac əkmə tədbiri 11 nömrəli İnteqrasiya Təlimli İnternat Məktəbində baş tutub.

Aksiyada Xüsusi Olimpiya Komitəsinin prezidenti Şahin Əliyev, 11 nömrəli İnteqrasiya Təlimli İnternat Məktəbin direktoru Gülnarə Abdullayeva, UNEC-in İnklüziv Təhsil Mərkəzinin rəhbəri Sevinc Məhsimova, layihənin rəhbəri Mirgünay Bayramova, Azərbaycan Dövlət İqtisad Universitetinin tələbələri, həmçinin internat məktəbinin şagirdləri və Xüsusi Olimpiya Komitəsinin idmançıları iştirak ediblər.

Qeyd edək ki, "Gənclərin innovasiya layihəsi" 52 ölkədən təqdim edilən layihələr arasından seçilən 79 layihədən biri olub. Layihənin əsas məqsədi qlobal sferada inklüziv inkişafın gənclər arasında dəstəklənməsi, məhdudiyyətli gənclərin cəmiyyətə inteqrasiyası və gələcəyə yönümlü gənc liderlərin yetişdirilməsidir.

Gənclərin İnnovasiya layihəsi start götürüb (unec.edu.az)

## UNEC-dən "Musiqidən- Ürəklərə" adlı inklüziv konsert proqramı –

***Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) İnklüziv Təhsil Mərkəzi və Tələbə Həmkarlar İttifaqı Komitəsinin birgə təşkilatçılığı, "İstedadlı Əlillər" İctimai Birliyinin dəstəyi ilə "Musiqidən- Ürəklərə" adlı inklüziv konsert proqramı keçirilib.***

Konsertin məqsədi fiziki məhdudiyyətli insanların problemlərinə daha çox diqqət ayırmaq, onların hüquqlarını qorumaq və karyera inkişafına dəstək olmaqdır.

Tədbirdə UNEC-in tədris və təlim texnologiyaları üzrə prorektoru, dosent Anar Rzayev fiziki məhdudiyyətli şəxslərin sosial rifah halının yaxşılaşdırılması, onların cəmiyyətə inteqrasiyası və ictimai həyatın bütün sahələrində fəal iştirak etməsinin ölkəmizdə həyata keçirilən sosial siyasətin əsas istiqamətlərindən biri olduğunu deyib. A. Rzayev UNEC-də yaradılan inklüziv təhsil mühitindən də söz açıb. UNEC-də 63

nəfər fiziki məhdudiyyətli tələbənin təhsil aldığını deyən A. Rzayev universitetdə onlar üçün müvafiq şəraitin yaradıldığını vurğulayıb.

Loqos Psixoloji və Nitq İnkişaf Mərkəzinin sədri Təranə Məmmədova isə tədbirin əhəmiyyətindən danışıb.

Sonra UNEC ilə Loqos Psixoloji və Nitq İnkişaf Mərkəzi arasında əməkdaşlıq memorandumu imzalanıb. Memoranduma əsasən, ictimai birlik tərəfindən UNEC müəllimləri üçün treninqlər təşkil olunacaq, fiziki məhdudiyyətli tələbələrə psixoloji və loqoped dəstəyi göstəriləcək.

Daha sonra fiziki məhdudiyyətli insanlar müxtəlif mahnı, instrumental musiqi və rəqslərdən ibarət ifalarını təqdim ediblər. "Qayğı" Əlilliyi Olan Uşaqlar üçün Reabilitasiya Mərkəzinin, "Birgə və sağlam" İctimai Birliyinin yetirmələri, DanceAbility-İnklüziv rəqs qrupunun nümayəndələri, "Evdə Təhsil" məktəbinin şagirdləri, eləcə də görmə məhdudiyyətlilər öz çıxışları ilə hər kəsin diqqətini çəkiblər.

UNEC-dən "Musiqidən- Ürəklərə" adlı inklüziv konsert proqramı

## Əlilliyi olan gənclərin sahibkarliq fəaliyyətinin gücləndirilməsində inklüziv mühitin rolu –

***UNEC İnklüziv Təhsil Mərkəzinin koordinatoru Sevinc Məhsimova "Sahibkarlıq fəaliyyətinin hüquqi tənzimlənməsi" mövzusunda keçirilən beynəlxalq elmi konfransda iştirak edib.***

"Y-Lex consulting" şirkətinin təşkil etdiyi konfransda S. Məhsimova "Əlilliyi olan gənclərin sahibkarliq fəaliyyətinin gücləndirilməsində inklüziv mühitinin yaradılması" movzusunda cıxış edib. Həmcinin UNEC-də əlilliyi olan tələbələr üçün yaradılan inklüziv təhsil mühiti barədə konfrans iştirakçılarını məlumatlandırıb.

Əlilliyi olan gənclərin sahibkarliq fəaliyyətinin gücləndirilməsində inklüziv mühitin rolu (unec.edu.az)

## UNEC İnklüziv Təhsil Mərkəzinin yeni video çarxı təqdim edilib –

***Artıq uzun müddətdir UNEC-də xüsusi dəstəyə ehtiyacı olan tələbələrə yönəlmiş layihə icra edilir.***

UNEC İnklüziv Təhsil Mərkəzi 2015-ci ildən fəaliyyət göstərir və fəaliyyətini təkmilləşdirərək daima inkişaf edir. Mərkəzin başlıca məqsədi UNEC-də təhsil alan əlilliyi olan tələbələrə dəstək verməkdir.

İnklüziv Təhsil Mərkəzinin yeni video çarxını sizə təqdim edirik.

UNEC İnklüziv Təhsil Mərkəzinin yeni video çarxı təqdim edilib

“Hər zaman kitab mağazasında işləməyi arzulamışam, çünki...” –

***Vidad Məmmədzadə: “Futbol mənim üçün sadəcə fiziki mübarizə deyil, həm də ruhi-mənəvi və psixoloji qarşıdurmadır”***

***“Sağlam düşüncə, ləyaqət və əxlaq: Bunsuz istənilən insan yarımçıqdır”***

**“Mütaliə həyatı və insanları daha doğru görməyə, daha dərindən anlamağa kömək edir”**

Moderator.az 14 yanvar tarixindən etibarən sağlamlığı ilə bağlı müəyyən problemlər yaşayan, fəqət ağlı, istedadı, həyat eşqi və mübarizə əzmi ilə hər kəsə örnək ola biləcək tələbə gənclərin cəmiyyətə tanıdılması layihəsinə start verib. Bu layihə çərçivəsində sadəcə bu gəncləri tanımayacaq, həm də onların arzu və istəkləri, müxtəlif məsələlərlə bağlı ideya və təklifləri ilə tanış olacaqsınız. Layihəmizin bu dəfəki qonağı Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) tələbəsi Məmmədzadə Vidad Fikrət oğludur.

**-Vidad bəy, hansı fakültə, hansı ixtisas üzrə təhsil alırsınız?**

-Mən UNEC-in Distant, qiyabi və əlavə təhsil fakultəsinin, “Ümumi iqtisadiyyat” ixtisası üzrə təhsil alıram. Hazırda III kursda, qiyabi olaraq oxuyuram.

**-Dərsləriniz, imtahanlarınız necə keçir? Dərslərlə bağlı hər hansı çətinliyiniz varmı?**

-Dərslərdən də, imtahanlardan da hər hansı çətinliyim yoxdur. Dərslərə mümkün qədər yaxşı hazırlaşmağa çalışıram. Elə bu səbəbdən də imtahanlarda hər hansı ciddi çətinliyim olmur. Düşünürəm ki, bu, hər kəs üçün keçərli qaydadır. Dərslərə yaxşı hazırlaşan tələbənin imtahanda ciddi bir çətinliklə üzləşməsi mümkün deyil.

**-İxtisasınızı arzunuza uyğun olaraq məxsusi seçmisiniz, yoxsa bu, oxumaq üçün nəzərdə tutduğunuz çoxsaylı ixtisaslardan biri olub?**

-Yox, ixtisasımı özüm seçmişəm. Arzum bu universitetdə, hazırkı ixtisasım üzrə təhsil almaq idi. Arzumun ziddinə olaraq seçdiyim yeganə şey qiyabi olaraq oxumaq oldu. Mən hər zaman əyani təhsil almağı arzu etmişəm. Lakin səhhətimdəki problem buna imkan vermədi. Reabilitasiya prosesini ləngitməmək, müalicə imkanlarından maksimum yararlanmaq üçün qiyabi təhsili seçməli oldum.

**-Yəqin ki, universiteti bitirəndən sorna elə öz ixtisasınız üzrə də çalışacaqsınız?**

-Bəli. Planım məhz belədir. Bu, mənim sevdiyim bir ixtisasdır. Lakin mənim çalışmaq istədiyim daha bir sahə var ki, bu da məhz kitablarla bağlıdır. Hər zaman içimdə kitab mağazasında işləmək istəyi olub. Çox güman ki, bu istək kitablara olan marağım və sevgimdən qaynaqlanıb. Özümü kitab olan yerdə, xüsusilə də kitab mağazası və kitabxanalarda çox yaxşı hsis edirəm. Kitab mağazasının özünəməxsus xoş bir aurası olur. Bu aurada çalışmaq, kitabların əhatəsində, kitablarla işləmək düşünürəm ki, mənə çox xoş olardı. Bu, mənim üçün mənəvi istirahət və zövq demək olar.

**-Vidad bəy, universitetinizdə gəlib istedadlı tələbələrlə görüşən, onların potensialı ilə maraqlanan hansısa şirkətlər, qurumlar olubmu?**

- “Veysəloğlu” Şirkətlər Qrupu Təhsil müəssisələri ilə Əlaqələr Şöbəsi və “Azercell” təmsilçiləri universitetimizdə olub, tələbələrlə maraqlanıblar. Ola bilsin ki, digər şirkətlərin təmsilçiləri də olub.

**-Əgər hər hansı bir şirkət və ya kitab mağazası sizin üçün uyğun şərtlərlə iş təklif etsəydi, işləmək istərdiniz?**

-İstəyərdim.

**-İşlə bağlı hansısa quruma və ya müəssisəyə müraciət etmisinizmi?**

-Yox. Doğrusu işlə bağlı heç bir quruma müraciət etməmişəm. Buna səbəb isə aktiv müalicə prosesinə cəlb olunmağımdır. Dərman müalicəsi ilə yanaşı, idman da mənim müalicəmdə mühüm yer tutur. Həkimlər tam olaraq sağalmağım üçün mütəmadi surətdə idman etməyi məsləhət görür. Buna isə müəyyən qədər vaxt ayırmaq lazımdır.

**-Vidad bəy, bir müddət öncə ƏƏSMN-i müəssisələrdə sağlamlıq problemi olan şəxslərlə bağlı ayrıca kvota ayrılması ilə bağlı qərar verdi. Hansı ki, nazirliyin bu qərarına əsasən hər müəssisə ən azından bəlli kvota səviyyəsində öz müəssisəsinə müəyyən sağlamlıq problemi olan insanları da çalışdırmalıdır. Sizcə bu addım fiziki baxımdan müəyyən çətinliklər yaşayan vətəndaşların işlə təminatı baxımından nə dərəcədə faydalı addımdır?**

-Düşünürəm ki, bu, istənilən halda sağlamlıq problemi olan şəxslərin işlə təminatını yaxşılaşdırmaq baxımından gözəl bir addımdır. Bu, məlum qəbildən olan vətəndaşların iş tapmasını asanlaşdıra, onların iş imkanlarını genişləndirər. Hesab edirəm ki, bu, həm də dövlətimizin öz vətəndaşına verdiyi dəyərin göstəricisidir.

**-Universitetə gedib-gəlmək çətin deyil ki? Bunun üçün ictimai, yoxsa xüsusi nəqliyyatdan istifadə edirsiniz?**

-Təəssüf ki, ictimai nəqliyyatdan istifadə edə bilmirəm. Odur ki, dərslərə xüsusi nəqliyyatın vasitəsi ilə gedib-gəlirəm. Əsasən taksi xidmətindən istifadə edirəm.

**-Ödənişli, yoxsa ödənişsiz təhsil alırsınız?**

- Məcburi köçkün olduğumuz üçün təhsil haqqından azad edilmişəm.

**-Vidad bəy, sizcə sağlamlıq problemi olan tələbələrin təhsil haqqının dövlət tərəfindən qarşılanması, yaxud ən azından onlara təhsil haqqının ödənilməsində ciddi güzəştlərin tətbiqi bu tələbələrin maraqları baxımından daha arzuedilən olmazmı?**

-Təbii ki, ödənişli təhsil alan sağlamlıq problemi olan tələbələrin təhsil haqqının dövlətimiz tərəfindən qarşılanması yaxşı olardı. Qeyd etdiyim kimi, mənim təhsil haqqı problemim yoxdur. Bu vəsaiti dövlətimiz qarşılayır. Lakin digər sağlamlıq problemi olan tələbələrimizin təhsil haqqınından azad edilməsi məqsədəuyğun olardı. Unutmaq olmaz ki, həmin tələbələr müalicəyə cidid vəsaitlər xərcləyir. Müalicəyə bu qədər vəsait xərcləməklə yanaşı, həm də təhsil haqqı ödəmək, etiraf edim ki, heç də asan və hər kəs üçün əlçatan deyil. Bu baxımdan düşünürəm ki, onların təhsil haqqından azad edilməsi, yaxud onlara bu məsələdə ciddi güzəştlərin edilməsi faydalı olardı.

**-İnklüziv Təhsil Mərkəzinin fəaliyyətini bir tələbə olaraq necə dəyərləndirirsiniz? Sizcə bu mərkəzin fəaliyyəti tələbələrə nə verir?**

-UNEC İnklüziv Təhsil Mərkəzinin bizim həyatımızda mühüm rolu var. Bu mərkəz bizim təhsil almağımızı asanlaşdırır, bizim üçün hər cür rahatlığı təmin edir. Bu səbəbdən də İnklüziv Təhsil Mərkəzinin fəaliyyətini yüksək qiymətləndirirəm. Bu Mərkəz həm də bizə mənəvi-psixoloji baxımdan toparlanmaqda, daxilən daha güclü olmaqda, cəmiyyətə inteqrasiya məsələsində də kömək edir. Hesab edirəm ki, əgər bu mərkəzin fəaliyyəti olmasaydı, o zaman bizim sadəcə təhsilimizdə deyil, bütövlükdə, cəmiyyətə inteqrasiyamızda xeyli çətinlik və problemlər olardı. Mən bizə göstərdikləri köməkliyə görə həm universitet rəhbərliyinə, həm də İnklüziv Təhsil Mərkəzinə, onun rəhbərliyinə öz təşəkkürümü bildirirəm.

**-Vidad bəy, eşitdiyimə görə futbola xüsusi marağınız var?**

-Bəli. Futbolu sevirəm. Futbol, idmançıların əzmi, qələbə uğrunda aparılan mübarizə məni heyran edir. Futbol mənim üçün sadəcə idmançıların fiziki mübarizəsi demək deyil. Bu,

daha çox ruhi-mənəvi bir mübarizədir. Bu elə bir mübarizədir ki, burada qələbəyə inamını itirən, öz mübarizə əzmindən məhrum olan, ruhən zəif olan komanda fiziki baxımdan da məğlubiyyətə uğrayır. Yəni futbol sadəcə fiziki deyil, həm də mənəvi baxımdan güclü olmağı tələb edir. Bu isə o deməkdir ki, futbol mübarizəsi həm də komandaların, idmançıların daxili potensialının, mənəvi dünyalarının mübarizəsidir.

**-Hansı komandalara daha çox azarkeşlik edirsiniz?**

-Əsasən üç komandaya azarkeşlik edirəm. Bunlar "Beşiktaş", bir də "Mançester Yunayted" komandalarıdır.

**-Bəs milli komandalarımızdan oyunlarını mütəmadi surətdə izlədiyiniz futbol klubu var?**

-Doğrusu, əvvəllər milli komandalarımızdan yalnız "İnter" ə azarkeşlik edirdim. Onun bir çox oyunlarını da canlı olaraq izləmişəm. Lakin xeyli müddətdir ki, milli komandalarımızdan heç birinə azarkeşlik etmirəm.

**-Cəmiyyət sağlamlıq problemi olan şəxslərə münasibətdə lazımi həssaslıq və duyarlılıq sərgiləyirmi?**

-Hesab edirəm ki, bununla bağlı hələ də ciddi maarifləndirmə işinə ehtiyac var. İnsanlar daha çox mütaliə etməli, daha çox məlumatlanmalıdır. Düşünürəm ki, cəmiyyətdə sağlamlıq problemi olan şəxslərə münasibətin lazımı səviyyədə olmaması, bu məsələdəki müəyyən çatışmazlıqlar məhz bilgisizlikdən, maarifsizlikdən qaynaqlanır. Mütaliə insanı sadəcə məlumatlandırmır, həm də ona həyatı və insanları daha doğru görməyə, onları daha dərindən anlamağa kömək edir. Bu baxımdan hesab edirəm ki, insanlar nə qədər çox mütaliə edərsə, digərlərinə münasibətdə daha duyarlı və həssas olar.

**-Həyatda idealınız varmı?**

-Var. Bu, məşhur hind aktyoru Şaxrux Xandır. Onun həm peşəkar aktyorluğu, həm də canlandırdığı obrazlar, bu obrazların xarakterik xüsusiyyətləri - cəsarət, sədaqət, mübarizə əzmi onu mənim üçün ideallaşdırır.

**-Bəs milli kinolarımıza necə baxırsınızmı?**

-Düzünü deyim ki, mən son illər çəkilən filmlərin heç birinə baxmıram, daha doğrusu baxa bilmirəm. Bu filmlərdə məni cəlb edən, düşündürən heç nə yoxdur. Mən əsasən sovet dönəmində çəkilən Azərbaycan filmlərinə baxmağa üstünlük verirəm. Bu kinolar mənə

daha doğma, daha maraqlıdır. Fikrimcə, onlar daha düşündürücü və tərbiyələndirici təsirə malikdirlər.

**-Dostlarınız varmı?**

-Bəli, dostlarım var. Onların çoxu universitet yoldaşlarımdır. Onlar mənə hər zaman kömək edir, çətinlik çəkməyə qoymurlar. Onlardan Ramin, Anar, Elnur və digərlərini qeyd etmək istəyirəm və buradan onların hamısına öz təşəkkürümü bildirirəm.

**-Bəs həyatınızda xüsusi yeri və rolu olan insanlar varmı?**

-Var. Bunlar əsasən anam və qardaşımdır. Bu insanların mənim həyatımdakı rolu həqiqətən də böyükdür. Onların dəstəyi mənim həyatımda hər zaman həlledici rola malik olub. Nənəm, babam, xalam da mənim üçün əziz və doğma insanlardır.

**-Bakalavr pilləsini başa vurduqdan sonra təhsilinizi magistraturada davam etdirmək niyyətiniz varmı?**

-Belə bir niyyətim var. Hər halda təhsilimi davam etdirmək mənim üçün faydalı olar.

**-Bəs xaricdə təhsil imkanı yaradılarsa, o zaman bu imkandan istifadə edərsinizmi?**

-Etmək istərəm. Ancaq qeyd etdiyim kimi, mənim üçün tam olaraq sağalmaq, əvvəlki sağlamlığıma qovuşmaq daha vacibdir. Bu, məni düşündürən əsas məsələdir. Öz sağlamlığıma nə qədər tez qovuşsam, təhsilimin və həyatımın sonrakı mərhələləri ilə bağlı daha geniş fəaliyyət göstərə bilərəm.

**-Sağlamlıq problemi olan tələbələrin müalicəsi üçün gərəkli vəsaitin dövlət tərəfindən qarşılanması ilə bağlı təkliflər səslənir. Sizcə bu təkliflərin reallaşması nə dərəcədə arzuedilən olar?**

-Hesab edirəm ki, əgər müalicəyə sərf olunan vəsaitlər dövlət tərəfindən qarşılansa, bu, həmin şəxslərə, onların ailəsinə çox böyükköməklik olar. Çünki bunlar aztəminatlı ailələr üçün həqiqətən də böyük vəsaitdir. Bu səbəbdən də həmin vəsaitlərin dövlət tərəfindən qarşılanması arzuediləndir.

**-İnsanda hansı keyfiyyətlərə daha çox önəm verirsiniz? Sizcə insanda hansı məziyyətlərin olması mütləqdir?**

-Məncə, insan hər şeydən öncə sağlam düşüncə tərzinə malik olmalıdır. Bu, olması mütləq olan keyfiyyətlərdəndir. Bundan başqa, insanın ləyaqət və əxlaqa sahib olması da vacibdir.

Bunlar insanın təməl keyfiyyətləridir. Hesab edirəm ki, bu keyfiyyətləri özündə birləşdirməyən hər hansı bir şəxs nə cəmiyyət, nə dövlət üçün faydalı oal bilməz.

**-Cəmiyyətin sağlamlıq problemi olan şəxslərə münasibəti ilə bağlı düşüncəniz nədən ibarətdir? Sizcə cəmiyyət bu şəxslərə münasibətdə lazımi duyarlılıq sərgiləyirmi?**

-Təəssüflər olsun ki, bununla bağlı müəyyən problemlər hələ də mövcuddur. Bəzən insana həddindən artıq çox diqqət yetirirlər. Bu isə insanda istər-istəməz psixoloji narahatlıq yaradır. Nəinki sağlamlıq problemi olan, hətta tam sağlam insana belə lazım olduğundan artıq nəzər salsanız, o, istər-istəməz özünü narahat hiss edəcək. Düşünürəm ki, bu kimi halların baş verməməsi üçün insanların yenə də maariflənməyə ehtiyacları var.

***Seymur ƏLİYEV***

“Hər zaman kitab mağazasında işləməyi arzulamışam, çünki...” (unec.edu.az)

UNEC-də “Əlillik Qüsur Deyil” kitabının təqdimatı –

***UNEC İnklüziv Təhsil Mərkəzində “Əlillik Qüsur Deyil” kitabının təqdimatı keçirildi.***

Tədbirdə Azərbaycan Respublikasının insan hüquqları üzrə Ombudsman Aparatının Hüquqi maarifləndirmə sektorunun müdiri Müqalib Mahmudov, AR Gənclər və İdman Nazirliyinin Sağlam həyat tərzinin təbliği və sosial proqramlar sektoru müdiri Nərmin Aslanbəyova, 1 saylı sağlamlığı məhdud insanların Peşə Reabilitasiya Məktəbinin direktoru Rəhilə Həsrətova, Əlillik üzrə fəaliyyət göstərən qeyri hökümət təşkilatlarının rəhbərləri, dövlət qurumlarının kitabxanalarının direktorları, kitabda təqdim olunan istedadlı əlilliyi olan şəxslər də iştirak etmişdir.

İnklüziv təhsil mərkəzinin koordinatoru Sevinc Məhsimova, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən hazırlanan, nəfis şəkildə tərtib olunan 278 səhifəlik kitab-albom nazirliyin sosial xidmət müəssisələrinin istedadlı sakinləri, onların yaradıcılıq nümunələri barədə foto-məlumatlarla zəngin məlumatları əhatə edən ilk nəşr oldugunu və kitab-albomda saglamlıqda məhdudiyyətləri olsalar da daim özlərinə inam hissi ilə yaşayan, istedad və qabiliyyətləri ilə seçilən və bu bacarıqlarını daim inkişaf etdirməyə, təkmilləşdirməyə çalışan, ictimai-mədəni həyatda artıq özlərini uğurla təsdiq etməyə nail olan 60-a yaxın insan və onların müxtəlif yaradıcılıq nümunələri ilə zəngin oldugunu qeyd etdi.

Azərbaycan Respublikasının insan hüquqları üzrə Ombudsman Aparatının Hüquqi maarifləndirmə sektorunun müdiri Müqalib Mahmudov öz çıxışında əlilliyi olan şəxslərin imkanlarının genişləndirilməsi, inklüzivliyin və bərabərliyin təmin olunması, intellektual

imkanlarının dəstəklənməsi, istedadlı gənclərin beynəlxalq sərgilərdə, idman yarışlarında, mahnı və rəqs müsabiqələrində iştirakının təmin edilməsi və digər istiqamətlərdə həyata keçirilən layihələr Azərbaycanda əlilliyi olan şəxslərlə bağlı dövlət siyasətinin mütərəqqi yanaşmalarının nəticəsi olduğunu qeyd etmişdir.

1 saylı sağlamlığı məhdud insanaların Peşə Reabilitasiya Məktəbinin direktoru Rəhilə Həsrətova "Əlillik Qüsur Deyil" Kitabında təqdim olunmuş əlilliyi olan insanların məktəbin məzunları olub onların ugurlarından danışdı.

AR Gənclər və İdman Nazirliyinin Sağlam həyat tərzinin təbliği və sosial proqramlar sektoru müdiri Nərmin Aslanbəyova UNEC ilə əməkdaşlığının olduğunu və xüsusən UNEC-də əlilliyi olan gənclərə göstərdiyi diqqət və qaygıda daimi dəstək göstərəcəklərini qeyd etdi.

UNEC 24/7 Kitabxanasının müdiri Arzu Məmmədova kitabxanaların fiziki məhdudiyyətli gənclərin təhsilə inteqrasiyasında atılan həm psixoloji, həm də mənəvi addımlardan olduğunu, kitabxanaların onların həyatında danılmaz rolunun olmasından danışdı. Həmçinin hazırda inkluziv kitabxana xidmətlərinin tətbiqi sahəsində görülən işlərdən bəhs etdi.

UNEC-də "Əlillik Qüsur Deyil" kitabının təqdimatı

## 2 fevral - Gənclər Günü ilə əlaqədar ekskursiya təşkil edilib –

***UNEC İnklüziv təhsil mərkəzinin tələbələri üçün 2 fevral - Gənclər Günü münasibəti ilə Ulduz Şokolad Fabrikinə ekskursiya təşkil edilib.***

Müəssisə ilə əməkdaşlıq çərçivəsində təşkil olunan ekskursiya tələbələr tərəfindən böyük maraqla qarşılanıb.

Tədbirin sonunda Ulduz Şokolad Fabriki tərəfindən UNEC-də təhsil alan əlilliyi olan tələbələrə müəssisənin istehsalı olan şirniyyatlardan ibarət hədiyyələr təqdim edilib.

2 fevral - Gənclər Günü ilə əlaqədar ekskursiya təşkil edilib (unec.edu.az)

## "Biz sadəcə peşəkar kadr deyil, həm də əsl vətəndaş yetişdirməyə çalışırıq" –

***Sevinc Məhsimova: "Tələbələrimizin universitetdən sonrakı həyatı, əmək fəaliyyəti də maraq dairəmizdədir"***

***"Televiziyanın sağlamlıq məhdudiyyəti olan şəxslərin probleminə daha çox diqqət ayırmasına ehtiyac var"***

**“Bəzən psixoloji dəstəyə əlilliyi olan tələbələrdən daha çox, onların valideynlərinin ehtiyacı olur”**

14 yanvar tarixindən etibarən sağlamlığı ilə bağlı müəyyən problemlər yaşayan, fəqət ağlı, istedadı, həyat eşqi və mübarizə əzmi ilə hər kəsə örnək ola biləcək tələbə gənclərin cəmiyyətə tanıdılması layihəsinə start verib. Bu layihə çərçivəsində sadəcə bu gəncləri tanımayacaq, həm də onların arzu və istəkləri, müxtəlif məsələlərlə bağlı ideya və təklifləri ilə tanış olacaqsınız.

Layihəmizin bu dəfəki qonağı İnklüziv Təhsil Mərkəzinin koordinatoru Sevinc Məhsimovadır. Sevinc Məhsimovayla söhbətimizdə İnklüziv Təhsil Mərkəzinin fəaliyyəti ilə bağlı müxtəlif məqamlara aydınlıq gətirməyə, bu Mərkəzin əlilliyi olan tələbələrin həyatındakı rolunu müəyyənləşdirməyə, habelə görülən və görülməsi nəzərdə tutulan işləri müzakirə etməyə çalışdıq.

**-Sevinc xanım, öncə “inklüziv təhsil” anlayışının özünə aydınlıq gətirmək istərdik. İnklüziv təhsil nədir və özündə hansı keyfiyyətləri birləşdirir?**

- İnklüziv təhsil - bütün insanların müxtəlif təhsil ehtiyaclarının ödənilməsi baxımından hamı üçün əlçatan olmasını nəzərdə tutur. İnklüziv təhsil əlilliyi olan və olmayan bütün insanların, bütün gənclərin eyni təhsil haqqına malik olması, eyni mühitdə təhsil almaq haqqına sahib olması deməkdir. Bu, hər kəs üçün bərabərhüquqlu əlçatan təhsil imkanı deməkdir.

İnklüziv təhsili bəziləri sadəcə əlilliyi olan şəxslər üçün nəzərdə tutulan xüsusi təhsil kimi başa düşür. Ancaq bu, yanlış düşüncədir.

Universitetimizdə inklüziv təhsil üçün gərəkli şərait yaradılmışdır. Bizdə 30-dan cox müxtəlif əlilliyi olan tələbə təhsil alır. Onların əlillik dərəcəsi də fərqlidir. Elə tələbələrimiz var ki, onlar dərsə təkərləkli arabada gəlir. Bəzi tələbələrin də sağlamlıq problemi ilk baxışdan müəyyən olunmur. UNEC-də Qarabağ döyüşlərində yaralanıb əlil olan tələbələr də var. Demək olar ki, həmin tələbələrin digər tələbələrlə birlikdə eyni ortamda təhsil almasına, onların cəmiyyətə tam inteqrasiyasına nail olmuşuq.

**-İnklüziv Təhsil Mərkəzi nə vaxtdan fəaliyyət göstərir?**

-Azərbaycan Dövlət İqtisad Universitetində əlilliyi olan tələbələr hər zaman təhsil alıb. Onların çoxu qiyabi təhsil alır. İnklüziv Təhsil Mərkəzinin yaradılmasına 2014-cü ildə başladılıb və 2015-ci ildən etibarən Mərkəz rəsmi olaraq fəaliyyətə başlayıb. Artıq 4 ildir

ki, Mərkəzin fəaliyyəti davam edir və biz ildən-ilə öz fəaliyyətimizi daha da genişləndirməyə və təkmilləşdirməyə çalışırıq.

**-İnklüziv Təhsil Mərkəzinə əlilliyi olan tələbələrin özləri müraciət edir, yoxsa Mərkəzin özü bu qəbildən olan tələbələri xüsusi nəzarətə götürür?**

-Biz UNEC-ə qəbul olunan hər bir tələbəyə diqqət yetirir, onların hər biri ilə maraqlanırıq. Onların arasında əlillik problemi olan şəxslər varsa, biz onları nəzarətdə saxlamağa çalışırıq. Onları qeydiyyata alır, müəyyən danışıqlar aparırıq. Bəzi tələbələr var ki, onlar əlilliklərini əsla qəbul etmirlər. Bu səbəbdən də bizimlə ünsiyyətdə olmaq istəmirlər. Belə tələbələrə uzaqdan-uzağa nəzarət edirik. Onları narazı salmamaq üçün bu tələbələr haqqında, onların dərsləri, davranışları ilə bağlı müəllimlərdən, dekanlıqlardan informasiya əldə edirik.

**-İnklüziv Təhsil Mərkəzində tələbələrə psixoloji baxımdan da hansısa xidmət göstərilirmi?**

-Əlbəttə göstərilir. Bu Mərkəzin başlıca vəzifəsidir. Tələbələrin hər biri ilə fərdi söhbət aparılır. Onlarla görüşür, problemlərini öyrənməyə çalışırıq. Mərkəzin fəaliyyətinə dəstək olan, işinə öz borcu kimi yanaşan peşakar psixoloqlarımız var və onlar bu işdə bizə kömək edirlər. Onlar tələbələrlə danışır, onların psixoloji durumunu müəyyənləşdirirlər. Mən psixoloqlarımızın hər birinə bu dəstəyinə görə minnətdarlığımı bildirirəm.

Bir məqamı da qeyd edim ki, ali məktəbə qəbul olunan tələbələrin demək olar ki, hamısı bu mərhələyə qədər bir çox psixoloji əngəlləri aşmış olur. Yəni onlar bura kimi bir sıra mərhələlərdən keçir, müəyyən problemlərin öhdəsindən gəlmiş olurlar. Təbii ki, problemlər olur. Biz də onları həll etməyə çalışırıq.

**-Bu qəbildən olan tələbələrin valideynləri ilə də hansısa təmaslarınız olurmu?**

-Bu çox önəmli məqamdır. Biz sadəcə tələbələrlə deyil, həm də valideynlərlə sıx ünsiyyətdə oluruq. Valideyn amili bu məsələdə xüsusi rol oynayır. Biz tələbələrlə yanaşı onların valideynləri ilə də bir-bir tanış olur, bəzən onları bura ailəlikcə dəvət edirik. Əmin ola bilərsiniz ki, bir çox hallarda bu cür münasibətə, danışıqlara, psixoloji dəstəyə tələbələrdən çox onların valideynlərinin ehtiyacı olur.

**-Digər universitetlərdə vəziyyət necədir? Orada da İnklüziv Təhsil Mərkəzləri və ya buna bənzər mərkəzlər fəaliyyət göstərirmi?**

-Bir neçə il əvvəl, Təhsil Nazirliyinin dəstəyi ilə İnklüziv təhsillə bağlı ERASMUS layihəsi həyata keçirilmişdi ki, bu layihəyə 6 universitet qoşulmuşdu. Artiq o universitetlərdə də inklüziv təhsil mərkəzlər fəaliyyətə başlamışdır. Lakin bir məsələ var ki, digər universitetlərdə əlilliyi olan tələbələr azdır.

UNEC-də isə inklüziv təhsil sistemi çoxdan mövcuddur. Uzun illərdir ki, universitetimizdə əlilliyi olan tələbələr təhsil alır və bizdə inklüziv təhsil daha çox inkişaf etdiyinə görə bu Mərkəzin yaradılmasına dair universitet rəhbərliyi tərəfindən qərar verilmişdir.

**-2015-ci ildən bu günə kimi İnklüziv Təhsil Mərkəzi hansı layihələr həyata keçirib?**

-Biz bu müddət ərzində bir sıra mühüm layihələr həyata keçirmişik. Öncə onu qeyd edim ki, mütəmadi surətdə müəllimlərə təlimlər keçirilir. Bu təlimlərdə əlilliyi olan və olmayan tələblərlə bir yerdə tədris prosesinin necə keçirilməsi izah edilir.

2018-ci ilin fevralında "İnlküziv ali təhsil: beynəlxalq trendlər və UNEC təcrübəsi" adında beynəlxalq konfrans keçirdik. O konfransda inklüziv ali təhsil üzrə xarici ölkələrdən mütəxəssislər iştirak edirdi. Respublikamızdan da xeyli sayda mütəxəssis bu konfransa qatılmışdı. Konfransdan sonra ixtisaslaşmış 2 günlük təlimlər də təşkil olunmuşdu. Bu təlimdə 100 müəllim iştirak etdi.

2018-ci ilin 21 dekabrda Təhsil Nazirliyinin təşkil etdiyi II Ümumrespublika Tələbə Qurultayında UNEC-in I qrup əlilliyi olan tələbəsi uğurla çıxış etmişti. Ümumiyyətlə, bu istiqamətdə Təhsil Nazirliyi bizə daimi dəstək göstərir.

Bizim həyata keçirdiyimiz layihələrlə bağlı universitetimizin rəsmi www.unec.edu.az saytından, İnklüziv Təhsil Mərkəzi bölümündə, müvafiq facebook şəbəkəsində də daha geniş məlumat almaq mümkündür.

Təhsil müəssisələri arasında da maarifləndirici xüsusiyyətli tədbirlər təşkil edilir. Bu sahədə fəaliyyət göstərən bir çox təşkilatlarla da sıx əməkdaşlıq edirik.

**-Əvvəlki məzunlarla cari ilin məzunları arasında görüşlər keçirilirmi? Onlar arasında hansısa formada ünsiyyət və təmas təmin edilirmi?**

-Bütün məzunlar öz aralarında sosial şəbəkələr vasitəsi ilə təmasda olurlar. Onlar müəyyən qruplar şəklində virtual dostluq edir. Biz məzunlar arasında görüş də keçiririk. Biz bu görüşlərə sadəcə əlilliyi olan şəxsləri cəlb etmirik, bütün məzunları dəvət edirik. Əlilliyi oaln tələbələr bura onsuz da motivasiya ilə gəlirlər. Bu cür görüşlər sağlamlıq problemi olmayan şəxslər üçün daha motivasiyalı olur. Onlar əlilliyi olan gənclərimizin yüksək

əhval-ruhiyyəsinə, mübarizə əzminə baxıb daha aktiv olmağa, daha həyatsevər olmağa cəhd edirlər. Yəni bu görüşlər hər kəs üçün faydalı olur.

**-Yaxın gələcəklə bağlı hansısa layihələrin, yeniliklərin həyata keçirilməsini planlaşdırısınız mı? Qarşıdakı aylar, illərlə bağlı hədəflər nədən ibarətdir?**

-Bizim məqsədimiz sadəcə əlilliyi olan tələbələrə ali təhsil vermək deyil. Mərkəz tələbənin universitetdən sornakı həyatı, onun gələcəyini də düşünür, bunu diqqət mərkəzində saxlayır. Biz tələbələrimizin əmək fəaliyyəti, kariyerası ilə bağlı da planlar qurur, bu yöndə konkret iş aparırıq. UNEC Karyera Mərkəzi ilə birgə çalışırıq. Biz məzunlarımızın ixtisası, bilik və bacarığına uyğun olaraq bütün şirkətlərlə əməkdaşlıq edir, onlar üçün iş imkanlarını araşdırırıq. Başqa sözlə, tələbələrimizin universitetdən sonrakı həyatı, onların əmək fəaliyyəti diqqətdə saxladığımız məsələlərdəndir. Yaxın gələcəkdə bu yöndə fəaliyyətimizi daha da genişləndirmək, əlilliyi olan tələbələrimizin məşğulluq probleminin həlli istiqamətində daha ciddi addımlar atmaq niyyətindəyik.

**-Şirkətlər əlilliyi olan şəxslərin işə götürülməsinə maraq göstərirmi?**

-Çox sevindirici haldır ki, bir çox qurum bu məsələdə maraqlıdırlar. UNEC, ötən il Təhsil Nazirliyinin, Gənclər və İdman Nazirliyinin, ƏƏSMN-nin dəstəyi ilə əlilliyi olan gənclər üçün Ümumrespublika Əmək Yarmarkasını keçirdi. Bu əmək yarmarkasında 60-a yaxın qurum müxtəlif vakansiyalar təqdim etmişdi. Şübhəsiz, ki, bu cür tədbirlər əlilliyi olan şəxslərin məşğulluğunun təmin edilməsində əvəzsiz rol oynayır. Bu təcrübə çox gözəl oldu, belə ki, məzun gənclərimizin bir çoxunun işlə təmin olunmasına şərait yaranmışdır. Hal-hazırda təhsil alan tələbələrimiz şirkətlərin təqdim etdiyi təcrübə proqramlarında iştirak etmək imkanı əldə etmişçlər. Biz bu əmək yarmarkası zamanı bir gerçəyə də şahid olduq ki, əlilliyi olan şəxslər arasında ali təhsilli şəxslər azdır. Ali təhsilli əlilliyi olan gənclərin əksəriyyəti universitetimizin məzunları idi. “Gilan Holdinq”, “Norm”, “Veysəloğlu”, “Deloitte”, SOCAR AQŞ və s. şirkətlər də bir neçə əlillyi olan məzunu işə qəbul etdi. Sevindiricidir haldır ki, bütün rəsmi qurumlar, dövlət müəssisələri əlilliyi olan şəxsləri işə qəbul edir, onların məşğulluq probleminin həllinə yardılmçı olurlar. Ayrıca, Mərkəzimizin tələbələrinin korporativ sektora informasiya turları təşkil edilir. Məsələn, bu yaxınlarda əlilliyi olan tələbələrimiz Verseloğlu Şirkətlər Qrupunun Ulduz Şokolad Fabrikində istehsalat prosesilə yaxından tanış olublar. Bu tədbirlər praktiki bilik və bacarıqlarının artdırılmasında böyük rol oynayır.

**-Əlilliyi olan və ödənişli əsaslarla təhsil alan tələbələrin demək olar ki, hamısı belə hesab edir ki, onların təhsil haqlarının dövlət tərəfindən ödənilməsi daha məqsədəuyğun olardı və bu, onlara öz müalicələrinə daha çox vəsait ayırmağa şərait**

**yaradardı. Bu təklifə münasibətiniz necədir? Sizcə gələcəkdə bu qəbildən olan tələbələrin təhsil haqqının dövlət tərəfindən ödənilməsi məsələsinin öz həllini tapması arzuedilən olardımı?**

-Hesab edirəm ki, əlilliyi olan tələbələrin təhsil haqqının dövlətimiz tərəfindən ödənilməsi təqdirəlayiq olardı. Ən azından əlillik dərəcəsini nəzərə alaraq, onlara müəyyən güzəştlərin göstərilməsi, I qrup əlillərin təhsil haqqından tamamilə azad edilməsi müsbət addım olardı.

UNEC Tələbə Həmkarlar İttifaqı Komitəsinin bu mövzuda dəstəyini cox yüksək qiymətləndirirəm. Bu təşkilat bir neçə tələbənin təhsil haqqını da öz öhtəsinə alıb. Eyni zamanda da biz tələbələrimiz üçün sponsorlar axtarırıq. Gənclər Fondu gözəl bir təşəbbüslə çıxış etdi. Maddi imkanları aşağı olan tələbələrin təhsil haqqının ödənilməsi ilə bağlı bu təşəbbüs çox böyük marağa səbəb oldu və cəmiyyətdə də təqdir olundu. Bizim tələbələrimizdən I qrup əlilliyi olan tələbənin bir illik təhsil haqqının ödənilməsini də Gənclər Fondu öz üzərinə götürdü. Burda, Veysəloğlu Şirkətlər Qrupunun bizə böyük dəstəyini qeyd etmək istərdim. Təbii ki, Dövlət tərəfindən qəbul olunan programları, layihələri unutmaq olmaz. Respublikanın rəhbərliyinin göstərişilə bu istiqamətdə ciddi işlər görülür. Əminəm ki, yaxın illərdə mövcud olan problemlər aradan qaldırılacaq və əlilliyi olan şəxslər həyatımızın bütün sahələrində bərabər hüquqlu həyat yaşayacaq və fəaliyyət göstərəcəklər.

**-İnklüziv Təhsil Mərkəzinin fəaliyyəti sadəcə universitetin daxili imkanları əsasında təmin edilir, yoxsa Mərkəzə kənardan hansısa maliyyə dəstəyi də mövcuddur? Ümumiyyətlə, kənardan hansısa maliyyə dəstəyinin göstərilməsi İnklüziv Təhsil Mərkəzinin daha effektiv fəaliyyəti baxımından nə dərəcədə arzuedilən olardı?**

-UNEC İnklüziv Təhsil Mərkəzi universitetin bir strukturudur. Mərkəzimiz univertsitetin nəzdindədir və biz bütün fəaliyyətimizi universitetimizin daxili hesabına təmin edirik. UNEC rektoru, professor Ədalət Muradovun vurguladığı kimi, inklüziv təhsil UNEC-in prioritet məsələlərindən biridir. Və fürsətdən istifadə edib, universitet rəhbərliyinə də göstərdikləri köməkliklərə, verdikləri dəstəyə görə təşəkkür edirəm. Qürurla qeyd etmək istəyirəm ki, həm UNEC-in bütün rəhbərliyi, həm də hər bir əməkdaş bizə bu işdə dəstək olur.

**-Sizcə medianın, xüsusilə də telekanlların sağlamlıq problemi olan şəxslərə, onların cəmiyyətə daha dərin inteqrasiyasına daha çox diqqət ayırmasına ehtiyac varmı? Cəmiyyətin KİV-lər vasitəsi ilə maarifləndirilməsi nə dərəcədə vacibdir?**

-Siz çox vacib məsələni qeyd ettiniz. Medianın, televiziyanın bu məsələyə daha çox diqqət ayırması, cəmiyyətin bununla bağlı daha çox məlumatlandırılması zəruridir. Cəmiyyət hələ də bu məsələdə lazımi hazırlığa malik deyil. Bu yöndə yüzlərlə layihənin həyata keçirilməsinə baxmayaraq, cəmiyyətin hazırlıq səviyyəsindəki nöqsanlar hər yerdə gözə çarpır. İstər küçə və keçidlərdəki pandusların azlığı, bəzi səkilərdə quraşdırılan pandusların lazımi standartlara cavab verməməsi açıq müşahidə olunur, məsələn, bəzi panduslar kəskin hündürlüyə malikdir, bəziləri isə elə yerləşdirlib ki, onların istifadəsi ümumiyyətlə mümkün deyil.

Cəmiyyətin bu məsələdə məlumatlandırılması və maarifləndirilməsi prosesinin bütün TV kanallarda həyata keçirilməsinə ehtiyac var. Bu verilişlər bütün kanlalarda olmalı, xüsusilə reklam aralarında əlilliyi olan şəxslər və onlara münasibətlə bağlı sosial çarxlar göstərilməlidir. Əsasən də axşamüstü, vətəndaşların evlərində daha çox olduğu, televiziya qarşısına daha çox yığışdığı vaxtlarda bu cür video çarxların göstərilməsi faydalı olar.

Televiziyada, sosial şəbərələrdə, hər bir qurum, təşkilat, təhsil ocağı ya da iş yerində, hər yerdə bu məsələyə daha çox diqqət yetirilməsi cəmiyyətin hazırlıq səviyyəsinin yüksəldilməsi baxımından zəruridir və ümid edirəm ki, yaxın gələcəkdə biz bu sahədə daha geniş miqyaslı müsbət dəyişikliklərə şahid olacağıq.

***Seymur ƏLİYEV***

"Biz sadəcə peşəkar kadr deyil, həm də əsl vətəndaş yetişdirməyə çalışırıq" (unec.edu.az)

"Valideyn və müəllimlərimin gözləntilərini uğurlarımla doğrultmağa borcluyam" –

**Cəmilə Yaqubova: "Özünəinam, həyatsevərlik və optimizm sevdiyim, özümdə əxz etmək istədiyim keyfiyyətlərdir"**

**"Kanadanın zəngin təbiəti, Almaniyanın üstün təhsil imkanları məni digər ölkələrdən daha çox maraqlandırır"**

**"İnklüziv Təhsil Mərkəzinin həyatımdakı rolu həqiqətən olduqca böyükdür"**

**"ƏƏSMN-nin sağlamlıq problemi yaşayan şəxslərlə bağlı həyata keçirdiyi yeniliklər təqdirəlayiqdir"**

Moderator.az 14 yanvar tarixindən etibarən sağlamlığı ilə bağlı müəyyən problemlər yaşayan, fəqət ağlı, istedadı, həyat eşqi və mübarizə əzmi ilə hər kəsə örnək ola biləcək tələbə gənclərin cəmiyyətə tanıdılması layihəsinə start verib. Bu layihə çərçivəsində sadəcə bu gəncləri tanımayacaq, həm də onların arzu və istəkləri, müxtəlif məsələlərlə bağlı ideya və təklifləri ilə tanış olacaqsınız. Layihəmizin bu dəfəki qonağı Cəmilə Yaqubovadır.

**- Cəmilə xanım, hansı universitetdə təhsil alırsınız?**

- Azərbaycan Dövlət İqtisad Universitetinin Texnologiya və dizayn fakültəsində "Çoxişlənən malların texnologiyası mühəndisliyi" ixtisası üzrə 3-cü kursda təhsil alıram.

**- Mümkünsə bir qədər tələbə həyatından bəhs edərdiniz. Tələbəlik necə gedir? Tələbə həyatının ənənəvi çətinlikləri sizi yormur ki?**

- Doğrusu, tələbə həyatı ilə bağlı hər hansı çətinliyim yoxdur. Tələbə həyatı mənim üçün kifayət qədər maraqlıdır. Sevinirəm ki, belə bir universitetdə təhsil alıram.

**- Bu fakültəyə öz arzunuza uyğun olaraq daxil oldunuz, yoxsa hədəfinizdə başqa bir ixtisas var idi?**

- Əslində mən dizaynerlik ixtisası üzrə təhsil almaq istərdim. Lakin o fakültəyə balım çatmadı. Ona görə də bu fakültə ilə kifayətlənməli oldum. Ancaq buna baxmayaraq, bu seçimim üçün peşman deyiləm. Düşünürəm ki, bu ixtisas üzrə də cəmiyyətimiz və dövlətimizə faydalı ola, özümü bu sahədə də təsdiqləyə bilərəm.

**- Magistratura təhsili almaq niyyətiniz varmı?**

- Bəli var. Çox istərdim ki, təhsilimi ixtisasıma uyğun olaraq davam və inkişaf etdirim. Bu baxımdan magistratura təhsili almaq niyyətim var. Düşünürəm ki, magistratura təhsili bilik dairəmi genişləndirmək, ixtisasımla bağlı daha dolğun məlumt almaq baxımından faydalı olar.

**- Əgər müəyyən dəstək və dəvət olarsa, təhsilinizi ölkəmizdən kənarda davam etdirmək istərdinizmi?**

- Təbii ki, istərdim. Almaniya və ya Kanadada təhsil almaq daha çox ürəyimcə olardı.

**- Niyə daha çox bu ölkələrdə təhsil almaq istəyirsiniz?**

- Bilirsiniz, bu ölkələrin hər biri məni öz spesifik xüsusiyyətinə görə cəlb edir. Kanadanı mənim üçün cəlbedici edən başlıca amil onun təbiətidir. Kanadada təhsil mənə öz biliklərimi genişləndirməklə yanaşı, həm də ərazicə dünyanın ikinci ən böyük ölkəsi olan bu diyarın zəngin təbiətini görmək, bu təbiətlə yaxından təmasda olmaq imkanı verər.

Almaniyanı mənim üçün cəlbedici edən ən başlıca məqam isə onun təhsil imkanlarının əhatəliliyidir. Almaniyada təhsil sisteminin perspektivləri daha genişdir və bu sistem

tələbələrin elmi bilikləri daha dərindən mənimsəməsi baxımından böyük imkanlara malikdir. Bu səbəbdən də Almaniyada təhsil almaq da arzularım sırasındadır.

**- İnklüziv Təhsil Mərkəzi ilə bağlı düşüncənizi bilmək istərdik. Sizcə bu mərkəzin fəaliyyəti müəyyən sağlamlıq problemi olan tələbələrin təhsili baxımından nə dərəcədə əhəmiyyətlidir?**

- İnklüziv Təhsil Mərkəzi şəxsən mənim həyatımda çox böyük rol oynayıb. Bu təhsil mərkəzi bizə təlim-tədris məsələlərində olduqca çox yardımçı olur, bizə istiqamət verir, təhsil prosesində daha ciddi müvəffəqiyyətlər əldə etməyimizə şərait yaradır. Mərkəzdə bizim üçün əlavə dərslər təşkil olunur. Bu təhsil prosesini daha da ugurlu olmasına kömək edir. Bu baxımdan İnklüziv Təhsil Mərkəzinin, eləcə də mərkəzin koordinatorunun sevimli müəlliməmiz Sevinc Məhsimovanın əməyini çox yüksək qiymətləndiririk.

**- Boş vaxtlarınızı necə keçirirsiniz? Asudə vaxtlarınızda nə ilə məşğul olmaq sizə daha çox xoşdur?**

- Boş vaxtlarımda mütaliə etməyi, həmçinin musiqi dinləməyi xoşalyıram. Mütaliəni xüsusilə sevirəm. Hesab edirəm ki, bu, hər bir kəs üçün olduqca vacibdir. Mütaliə sadəcə bizim fikir və düşüncəmizi zənginləşdirmir. Bu, bizə həm də müxtəlif dünyagörüşləri, baxış sistemləri, düşüncə və təlil sistemləri ilə tanış olmağa, fikir və ideya dünyasının zənginliyi, sonsuzluğu ilə daha yaxından tanış olmağa kömək edir. Mütaliə insanın daxili dünyasını zənginləşdirir, ona mənəvi güc qazandırır. Bu baxımdan mütaliəni hər kəs üçün faydalı bir iş hesab edirəm.

**- İş imkanlarını necə dəyərləndirirsiniz? Sizcə yaxın gələcəkdə məşğulluqla bağlı hər hansı çətinlik yaşamamaq üçün indidən bu istiqamətdə müəyyən araşdırma aparmaq, əmək bazarını öyrənməyə ehtiyac varmı?**

- Əslində təbii ki, bu sahədə imkanların daha geniş, daha rəngarəng olması arzuedilən olardı. Lakin indiki mərhələdə daha çox öz ixtisasım üzrə biliklərimi genişləndirməyə çalışıram. Məqsədim öz ixtisasımı mükəmməl bilmək, bu sahə üzrə peşəkar kadr kimi formalaşmaqdır. Bu hədəfimə nail olandan sonra təbii ki, iş imkanlarını daha ətraflı şəkildə öyrənmətə çalışacam.

**- Yerli firma və şirkət təmsilçilərinin universitetinizi ziyarət etməsi, istedadlı tələbələrlə maraqlanması, onlara təhsil və iş həyatında dəstək vəd etməsi halı olubmu?**

- Bu yaxınlarda İnklüziv Təhsil Mərkəzi “Veysəloğlu” şirkətinin nümayəndələrini universitetimizə dəvət etmişdi. Onlarla görüşdə iştirak etdik. Bundan öncə isə universitetimizdə əmək yarmarkası keçirilmişdi. Hansı ki, mən də əmək yarmarkasında iştirak edirdim.

**- Sizcə bu əmək yarmarkaları yetərincə iş imkanı təklif edirmi? Belə yarmarkalarda iştirak məşğulluq probleminin həlli baxımından həqiqətən də faydalıdırmı?**

- Düşünürəm ki, bu kimi yarmarkaların təşkili istənilən baxımdan faydalıdır və təqdir edilməlidir. Bu yarmarkalar iş imkanları təklif etməklə yanaşı, həm də bu sahədə gözəl bir ənənə formalaşdırmış olur. Bu baxımdan məlum addımlaırn gələcəkdə də təkrarlanması arzuedilən olardı.

**- Sağlamlığı ilə bağlı müəyyən çətinlik yaşayan şəxslər adətən cəmiyyətdə özlərini bir qədər narahat hiss edirlər. Sizcə bu narahatlığın səbəbi nədir? Bu, həmin şəxslərin psixologiyasının zəifliyi ilə bağlıdır, yoxsa cəmiyyətin onlara münasibətində həqiqətən də arzuedilməz nüasnlar mövcuddur?**

- Bilirsiniz, hesab edirəm ki, cəmiyyətin bu qəbildən olan şəxslərə münasibəti həmin cəmiyyətin düşüncə tərzindən, onun mənəvi kamilliyinin səviyyəsindən asılıdır. Doğrusu, bizim cəmiyyətimizdə sağlamlıq problemi olan şəxslərə münasibət arzuediləndir. Lakin hesab edirəm ki, cəmiyyətdə sağlamlıq problemi olan şəxslərə münasibət məsələsində maarifçilik tədbirlərinin genişləndirilməsi faydalı olardı. Xüsusilə də televiziyaların bu məsələyə daha çox diqqət yetirməsinə ehtiyac var.

Valideynlərin bu məsələ ilə bağlı övladlarına da ətraflı bilgi verməsi, onları sağlamlıq problemi olan şəxslərlə ünsiyyətdə daha həssas və diqqətli davranmağı təlqin etməsi xüsusilə faydalı olardı. Hesab edirəm ki, cəmiyyətimizdə bu yöndə daha sistemli addımların atılması müsbət olardı.

**- Mütəxəssislər belə bir fikir bildirir ki, sağlamlıq problemi olan şəxslərə aşırı diqqət və qayğı da onlarda mənfi emosiya və təəssürat doğurur. Yəni hətta yaxşı mənada diqqət mərkəzində olmaq belə onların psixologiyasına mənfi təsir edir. Bu qənaəti bölüşürsünüzmü?**

- Təbii ki, elə və ya belə diqqət mərkəzində olmaq insanı bir qədər narahat edir. Lakin düşünmürəm ki, davamlı qayğı görmək onlarda qeyd etdiyiniz qədər ciddi narahatlıq doğursun. Çünki insan təbiəti etibari ilə diqqət və qayğıya daha tələbkardır. Buna daha çox

ehtiyac duyur. Bu baxımdan düşünürəm ki, mütəmadi qayğı ilə əhatə olunmaq digər mənada diqqət mərkəzində olmaqdan daha yaxşıdır.

**- Sizcə sağlamlığı ilə bağlı müəyyən çətinlik yaayan insanın cəmiyyətdə özünü daha sərbəst, daha rahat hiss etməsi üçün nə lazımdır? Bu qəbildən olan şəxslər nə etməlidir ki, toplumda özlərini daha rahat hiss etsinlər?**

- Düşünürəm ki, bunun başlıca yolu insanın özünə inaması, özünü problemli biri kimi deyil, topluma faydalı olan, qarşısına müəyyən məqsədlər qoyan və ona çatmaq üçün lazımi daxili gücə malik biri kimi hiss etməsi, özünə məzh bu cür baxmağı bacarmasıdır.

**- ƏƏSMN-yi bəlli bir müddətdir ki, sağlamlıq problemli olan şəxslərin işlə təminatı ilə bağlı yeni bir addım atıb. Hər bir müəssisə üçün sağlamlıq problemi olan şəxslərlə bağlı konkret kovta müəyyən edib. Hansı ki, sözügedən kvota məhz bu qəbildən olan fərdlərin işə alınmasını nəzərdə tutur. Sizcə nazirliyin müəssisələr qarşısında məcburiyyət xarakterli belə bir yeniliklə çıxış etməsi sağlamlıq problemi olan şəxslərin işlə təminatı baxımından nə dərəcədə faydalıdır?**

- Düşünürəm ki, ƏƏSMN-nin belə bir təşəbübslə çıxış etməsi həqiqətən də təqdirəlayiqdir. Zənnimcə, məlum addımın ən mühüm özəlliyi odur ki, bu, sağlamlıq problemi olan şəxsləri kiminsə insaf və mərhəmətsağlamlığı ilə bağlı müəyyən çətinlik yaşayan insanlar da bu ölkənin bərabərhüquqlu vətəndaşlarıdırlar və onların işlə təminatına süni əngəllər yaratmaq olmaz. Bu baxımdan ƏƏSMN-nin bu addımı alqışa layiqdir.

**- Sağlamlıq problemi yaşayan tələbələrin təhsil haqqından azad edilməsi, onların təhsili üçün gərəkli olan vəsaitin dövlət tərəfindən qarşılanması sizcə arzuedilən olardmı?**

- Əlbəttə ki, bu tələbələrin təhsil haqlarının dövlət tərəfindən qarşılanması çox gözəl, humanist bir addım olardı. Bu, övladının müalicəsinə davamlı vəsait xərcləməli olan valideynlərə də böyük kömək olardı. Əgər bu tələbələr təhsil haqqından azad edilsələr, bu, onların müalicə prosesinə də böyük kömək olar. Belə olarsa, valideynlər əldə etdikləri vəsaitin tamamını onların müalicəsinə, məişət həyatının yaxşılaşmasına və s. sərf edə bilərlər. Məncə bu təklifin reallaşması hər kəsin ürəyincə olar.

**- Bu qəbildən olan tələbələrin istər təhsil, istərsə də məişət həyatını asanlaşdırmaq üçün daha hansı təkliflərin reallaşması faydalı olardı?**

- Zənnimcə, digər sahələrdə olduğu kimi bu müstəvidə də həyata keçirilməli olan işlər var. Mən ilk baxışdan adi görünən bir məsələyə diqqət çəkmək istəyirəm. “BakuBus”

avtobusları istisna olmaqla, digər avtobuslarda əlil arabaları üçün yerlər yoxdur. Halbuki, bu, sağlamlıq problemi olan şəxslərin ictimai nəqliyyatda rahat hərəkəti üçün zəruridir. Görmə qabiliyyəti zəif olan şəxslərlə bağlı da müəyyən yeniliklərin tətbiqi məqsədəuyğun olardı.

Ehtiyacı olan şəxslərin elektron əlil arabaları ilə dövlət tərəfindən təmin edilməsinə də ehtiyac var. Düşünürəm ki, bəzi dövlətlərin bu sahədəki təcrübəsi Azərbaycan üçün də xeyli dərəcədə faydalı olar.

**- Həyatınızda xüsusi minnətdarlıq duyduğunuz şəxslər varmı? Varsa kimlərdir?**

- Təbii ki, belə insanlar var və onların sırasına ilk növbədə ailə üzvlərim daxildir. Bacım mənə daha çox dəstək olur. Bu kateqoriyaya universitet müəllimlərimi, dostlarımı, kurs yoldaşlarımı, məhəlləmizin doğma sakinlərini daxil etmək istərdim. Onların hər birinin həyatımda bəlli bir rolu olub və mən buradan onların hər birinə öz minnətdarlığımı bildirirəm.

**- İdealınız varmı? Kimi özünüz üçün nümunə hesab edirsiniz?**

- İdealım var və mənim üçün bu ideal bacımdır.

**- Hansı keyfiyyətlərinə görə onu özünüz üçün ideal hesab edirsiniz? Bacınızda olan və sizdə də olmağınızı arzuladığınız nələrdir?**

- Mənim bacımda ən çox qiymətləndirdiyim keyfiyyətlər onun özünəinamı və hədsiz həyatsevərliyidir. Bu iki keyfiyyəti onun ən güclü, ən üstün məziyyətlərindən hesab edirəm. Onun məndə rəğbət doğuran digər bir xüsusiyyəti isə optimistliyidir. O, təəssüf doğuran, kədərli hadisələrin belə işıqlı tərəfini görə bilir. Bu, pisdə yaxşını görmək, heç nəyə rəğmən ümidini itirməmək keyfiyyətidir. Mən də bu keyfiyyətləri özümdə əxz etmək istərdim.

**- Həyatda nail olmaq istədiyiniz son məqsəd, son hədəf nədir? Elə bir hədəf varmı ki, onu özünüz, yaşamınız üçün son və həlledici məqsəd kimi müəyyənləşdirmisiniz?**

- Bu suala indiki halda konkret cavab vermək mənim üçün çətindir. Çünki təhsil həyatım başa çatmayıb, iş həyatıma isə ümumiyyətlə başlamamışam. Düşünürəm ki, təhsilimi başa vurub əmək fəaliyyətinə başlayandan sonra yaxın və uzaq gələcəklə bağlı məqsədlərim də mənim üçün daha da dəqiqləşəcək, daha çox konkretlik kəsb edəcək. Odur ki, indidən bu barədə qəti nə isə deməkdə çətinlik çəkirəm. Amma bir şeyi əminliklə deyə bilərəm ki, bütün həyatım boyunca valideynlərimin və müəllimlərimin mənimlə bağlı gözləntilərini

doğrultmağa çalışacam. Onların mənim üzərimdəki zəhmətləri böyükdür və mən bu zəhməti uğura, müvəffəqiyyətə döndərməyə, mənə olan inamı həyatımın hər bir mərhələsində doğrultmağa borcluyam.

***Seymur ƏLİYEV***

“Valideyn və müəllimlərimin gözləntilərini uğurlarımla doğrultmağa borcluyam” (unec.edu.az)

## “Veysəloğlu” Şirkətlər Qrupu UNEC-in İnklüziv Təhsil Mərkəzində -

***“Veysəloğlu” Şirkətlər Qrupu UNEC-in İnklüziv Təhsil Mərkəzində əlilliyi olan tələbələrlə görüş keçirib.***

İlk olaraq UNEC-in Tələbələrlə iş üzrə prorektoru, dosent Səadət Qəndilova inklüziv təhsilin Azərbaycan təhsilinin prioritet məsələlərindən biri olduğunu, əlilliyi olan insanların daima dövlətin və yerli qurumların qayğı və diqqəti ilə əhatə olunduğunu və bu istiqamətdə tədbirlərin, layihələrin həyata keçirildiyini iştirakçıların diqqətinə çatdırıb. Daha sonra UNEC İnklüziv Təhsil Mərkəzinin koordinatoru Sevinc Məhsimova mərkəzin fəaliyyəti və universitetdə əlilliyi olan tələbələrə yaradılan şərait haqqında ətraflı məlumat verib. Həmçinin “Veysəloğlu” Şirkətlər Qrupu tərəfindən UNEC-də təhsil alan əlilliyi olan tələbələrə göstərilən diqqətin təqdirəlayiq addım olduğunu bildirib.

Daha sonra “Veysəloğlu” Şirkətlər Qrupunun Təhsil müəssisələri ilə əlaqələr şöbəsinin rəhbəri Fuad Əliyev çıxış edərək, şirkətin Azərbaycanda təhsil sahəsində həyata keçirdiyi uğurlu layihələri və “Veysəloğlu ilə ilk Addım” (VİA) təcrübə proramı haqqında məlumat verib və inkluziv təhsil ilə bağlı UNEC ilə gələcəkdə birgə əməkdaşlığa dair layihələrin həyata keçiriləcəyinə şirkət olaraq hazır olduqlarını bildirib.

Tədbirin sonunda “Veysəloğlu” Şirkətlər Qrupu tərəfindən UNEC-də təhsil alan əlilliyi olan tələbələrə hədiyyələr təqdim edilib və iştirakçıların sualları cavablandırılıb.

“Veysəloğlu” Şirkətlər Qrupu UNEC-in İnklüziv Təhsil Mərkəzində